**Ümumimilli Lider Heydər Əliyev: Dövlətinə Həsr Edilmiş Bir Ömür**

Hər bir xalqın tarixində adını qızıl hərflərlə yazdıran bir şəxsiyyət olmuşdur. Azərbaycan xalqının tarixində böyük izlər buraxan Ümummilli Liderimiz Heydər Əliyev xalqının qəlbində də böyük izlər qoymuşdur . Ulu Öndərimizin xalqımıza, dövlətimizə, irsiyyətimizə , mədəniyyətimizə qarşı dərin məhəbbəti , əvəzsiz xidmətləri onu qəlblərdə unudulmaz yerə sahib etmişdir .

Azərbaycan Respublikasının taleyini həll edən, ölkənin inkişafı üçün bütün səylərini ortaya qoyan Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində dünyaya göz açmışdır. Vətəninə daim ləyaqətlə, şərəflə xidmət etmişdir. Heydər Əliyev 1944-cü ildən 1969-cu ilədək Dövlət Təhlükəsizlik oraqnlarında xidmət göstərmişdir. Daha sonra SSRİ dövlətində siyasi mövqe əldə etmişdir. Heydər Əliyevin SSRİ kimi nəhəng bir dövlətin rəhbərliyində Siyasi Büronun üzvü olması, Nazirlər Soveti sədrinin birinci müavini olaraq yüksək mövqe tutması, vəzifə sahibi olması da Azərbaycan üçün böyük önəm kəsb edirdi. Ümummilli liderin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycan üçün qürurverici hadisə idi. Heydər Əliyev artan nüfuzundan və yüksək vəzifənin imkanlarından istifadə edərək İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra iri layihələrin Bakıya yönəlməsinə nail olmuşdur.

1990-cı ildə Azərbaycan xalqı çox ziddiyyətli bir stüasiya ilə qarşı-qarşıya qalmışdı. Sovet İttifaqının süquta doğru irəliləməsi İttifaqda olan ölkələrə öz təsirini göstərmişdi, hərc-mərcliklər yaranmağa başlmışdı. Blokadada olan Naxçıvan Muxtar Respublikasının taleyini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Ümummilli Lider Heydər Əliyevin irəligörüşlü siyasi addımları və səyləri həll etdi. Bununla da Naxçıvan Muxtar Respublikasında sabitlik təmin olundu.

1990-cı ilin yanvarın 19-dan 20-ə keçən gecə Azərbaycana qarşı daim öz ziddiyyətli mövqeyini göstərən Sovet ittifaqı Azərbaycan xalqının tarixinə qanlı izlər qoydu. Soyuq yanvar gecəsi Sovet ordusunun Bakıya tanklarla daxil olması cəsur, qorxmaz Azərbaycan xalqının azadlıq əzmini daha da alovlandırdı. Heydər Əliyev silahsız, qorunmasız dinc əhalinin qətl edilməsini bütün dünyaya çatdırmaq üçün yanvarın 21-i Moskvaya yollandı . O, öz çıxışında hər zaman olduğu kimi cəsurca dünyaya səsləndi və bu ədalətsizlik üçün tədbir görülməsini tələb etdi. 1990-cı ilin iyulun 20-də Heydər Əliyev Bakıya qayıtdı. İki gün sonra Naxçıvana yola düşən Heydər Əliyev həmin ildə də Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatı seçildi.

Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan

Respublikası Ali Soveti sədrinin müavini oldu. SSRİ dayaqları getdikcə sarsıldı, süqutunun ilk addımları eşidildi və İttifaqdaki ölkələr müstəqillik əldə etdilər. Heydər Əliyev : “ Bizim ittifaq 70 ilə yaxındır ki, mövcuddur, indi isə o, gözümüzün qabağında dağılır və son illərdə ölkənin siyasi rəhbərliyi tərəfindən milli siyasətdə yol verilmiş səhvlər nəticəsində dağılır .” ( Elmira Axundova, “Qayıdış”, səh-44.)

1991-ci ildə yenicə müstəqilliyinə qovuşan Azərbaycan xalqı onu itirmək qorxusu qarşısında qaldı. Xalq idarəçilikdən narazı idi. Ölkə müharibə şaraitində idi və vətəndaş müharibəsi təhlükəsi qarşısında qalmışdı . Üzərində qara buludlar dolanan Azərbaycan xalqı yeganə çıxış olunu Heydər Əliyev kimi siyasi görüşləri, ideyaları güclü bir şəxsiyyətin hakimiyyətə gəlməsində görürdü. Xalqın ümid dolu çağrışlarına Heydər Əliyev cavab verdi və 1993-cü il iyulun 15-də ikinci dəfə siyasi hakimiyyətə gəldi. Dahi şəxsiyyət xalqın ümidlərini doğrultdu, ilk növbədə ölkəni anarxiyadan , vətəndaş müharibəsindən xilas etdi və ermənilərlə atəşkəs müqaviləsinin imzalanmasına nail oldu. Bu hadisə Azərbaycanın dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi həkk olundu. Ulu Öndərimizin “Azərbaycanın müstəqilliyi daimidir, dönməzdir, əbədidir!” ideyası xalqın əsas müstəqillik, dövlətçilik şüarına çevrildi. ( “Müstəqillik yolu” Bakı-1997. )

Heydər Əliyevin siyasi strategiyaları sayəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu . Ulu Öndər həm siyasi, həm də iqtisadi sahələrdə apardığı strategiya ilə Azərbaycanı tənəzzülə doğru getməkdən xilas etdi. 1994-cü ildə Qərbdə iri neft şirkətləri ilə “ Əsrin müqaviləsini “ imzaladı. Neftdən gələn gəlirlər ölkənin iqtisadi baxımdan inkişafına böyük töhvələr verdi. Ölkənin gəliri bu islahatlar sayəsində ildən-ilə artmağa başladı . Vilayət Quliyev xatirələrində Heydər Əliyevlə bağlı belə qeyd edir : “ O, həqiqi lider idi. Tələb olunan anda sərtlik və qətiyyət göstərməyi bacarırdı. Qədim dövrlərin hökmdar və sərkərdələri kimi ordunu qırğına verməkdən daha çox özü təkbətək döyüşə atılmağı sevirdi. O, heç vaxt hakimiyyət maskası arxasında gizlənmirdi. “ ( Vilayət Quliyev, “ Böyük insan haqqında xatirələr “ kitabı, səh-172.)

Əsas qətiyyətini cəmiyyətin, ölkənin inkişafına yönəldən Heydər Əliyev hər bir vətəndaşın azadlığını və hüquqlarını, ölkənin müstəqilliyini və suverenliyini önəmli hesab edirdi . Heydər Əliyevin rəhbərliyi altında 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. 1998-ci ildə prezident seçkiləri nəticəsində yenidən prezident seçilən Ümummilli Lider Heydər Əliyev 2003-cü il dekabrın 12-də Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib və dekabrın 15-də Bakıda, Fəxri xiyabanda dəfn olunub. Bugün müstəqil, inkişaf etməkdə

olan , suveren ölkədə yaşamağımız üçün bütün səylərini ortaya qoyan Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevi sayğı ilə anırıq. Onun əkdiyi dövlətçilik toxumları bugün böyük bir ağaca çevrilmişdir . Ulu Öndərimiz Heydər Əliyevin miras qoyduğu siyasəti müasir dövrdə Cənab Prezidentimiz İlham Əliyev uğurla davam etdirir. Onun uğurlu xarici siyasəti nəticəsində bugün Xankəndimiz azaddır, Şuşamız azaddır, Qarabağımız azaddır !

"Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"

Heydər Əliyev .

İstinadlar:


1. "Böyük insan haqqında xatirələr" Vilayət Quliyev.
2. "Parlaq, xarizmatik şəxsiyyət haqqında xatirələr" Həsən Həsənov.
3. "Ümummilli Lider Heydər Əliyev, Hüseyn Cavid İrsinin Böyük Hamisi " Gülbəniz Babaxanlı
4. " Müstəqillik yolu " Bakı-1997.
5. "Qayıdış" Elmira Axundova
6. " Hakimiyyət yükü altında " Elmira Axundova
7. https://president.az/az/pages/view/azerbaijan/leader
8. https://az.m.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev